# Şüphəsiz Allah xalis olaraq Onun üçün edilən və Onun razılığı axtarılan əməldən başqa heç bir əməli qəbul etməz

Əbu Umamə Əl-Bəhilidən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Bir kişi Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəlib dedi: “Savab və ad-san üçün döyüşən bir adam nə qazanar? Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: “Onun üçün heç bir şey yoxdur” Kişi sualını üç dəfə təkrar etdi, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) isə hər dəfəsində "Ona heç bir şey yoxdur" deyə cavab verdi. Sonra dedi: "Şüphəsiz Allah xalis olaraq Onun üçün edilən və Onun razılığı axtarılan əməldən başqa heç bir əməli qəbul etməz."
[Səhih] [رواه النسائي]

Bir kişi Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəldi ki, Allahdan savab umaraq, insanların səna və tərifinə rəğbət bəsləyərək döyüşə və cihada gedən şəxsin hökmü barədə soruşsun ki, o adam Allah qatında mükafat əldə edəcəkmi? Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ona cavab verdi: Niyyətində Allahdan başqasını şərik qoşduğu üçün onun heç bir mükafat yoxdur. Kişi sualını üç dəfə təkrar etdi və Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) də hər dəfə ona eyni cavabı verdi və təkidlə bildirdi ki, ona əcr yoxdur. Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ona əməlin Allah tərəfindən qəbul edilməsi qaydasını xəbər verərək dedi: Allah yalnız bütünlükdə Allah üçün olub, Ona heç bir şərik qoşulmayan və yalnız pak Allahın rizası üçün edilən əməli qəbul edər.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee